*“...Allahın nəzərindən heç nə qaçmazdı və O-nun baxışı bomboz, mənasız həyatı da maraqlı edərdi”.*



## Umberto EKO:

Zəkanın vəcdin şəfəqləriylə aydınlandığı zamanlar elə gözəldi...

***

İnsanlar Tanrıya inanmaqdan vaz keçdikləri zaman bu artıq heç bir şeyə inanmadıqları deyil, əksinə, hər şeyə inandıqları anlamına gəlir.

***

Başlanğıcda Söz vardı, Söz Tanrı qatındaydı və Söz – Tanrıydı.

***

Kitabxananızın qoynunda heç üşüməyəcəksiniz. Hər halda cahilliyin dondurucu təhlükələrindən qorunmuş vəziyyətdəsiniz.

***

Kitablar öz aralarında danışır və ən önəmli olan da elə budur...

***

Sakitliyi hər yerdə axtardım və onu ancaq kitabla çəkildiyim bir küncdə tapdım.

***

Kitabın xoşbəxtliyi oxunmağındadır...

***

Belə məlum olur ki, antik müəlliflər bizim özümüzdən daha müasirmişlər.

***

Böyük ateistlərin hamısı din adamı yetişdirən məktəblərdən çıxıb.

***

Texnoloji təhlükələrdən sığınacaq yerini biz yenə mifologiyada axtarırıq.

***

Heç nə cəfəngiyat qədər şərhlər doğurmur.

***

Nə çox zaman keçdi, nələr-nələr oldu! Nə çox sınadı Tanrı bizi...

***

Ah, bilirsiniz, çox qaranlıq zamanlarda yaşayırıq indi...

***

Dövlət çox güclü olanda şeir də susur.

***

Başdan-başa Mayakovskilərdir və bir tək Jivaqo belə yox.

***

Yalan quraşdırmaq bacarığı – insanı heyvandan ayıran çox az şeylərdən biridir.

***

Ziyalını proletarlaşdırmaq, proletarı ziyalılaşdırmaqdan asandır.

***

Zaman – Qərbin icadıdır...

***

Kim bilir? Bəlkə, əsərlərini oxumadığımız kəsdir ən böyük yazıçı...

***

Gələcəyin böyük özəlliyi – daim heyrətləndirməyidir.

***

Həqiqət bizə azadlıq verir.

***

İnsan susaraq da bir şeylər söyləyə bilər.

***

Müdriklik bütləri yıxmaq yox, onları heç yaratmamaqdır.

***

Cüzamlını öpməyi anlaya bilirəm, amma əbləhlə əl verib görüşməyi əsla...

***

İnsan deyilən varlıqdan nə gözləyə bilərik ki?..

***

Bəzən insanın bir şeyi sübuta yetirmək üçün ölməyi lazım gəlir.

***

Gənclər artıq heç nə öyrənmək istəmirlər, elm geriləyir, bütün dünya kəllə-mayallaq olub, korlar korları idarə edir və uçuruma sürükləyirlər, quşlar hələ uçmağı öyrənməmiş yuvadan ayrılır...

***

İndiki nəsil şərri hörmətə mindirir.

***

Həqiqəti söyləmək insanın öz ürəyini yarmağı kimidir...

***

Ruhumuzu xilas etməliyik...

***

Ümid olmasaydı, cənnət də olmazdı.

***

İnternet yanlışla doğrunun ayırd edilmədiyi, süzgəcsiz bir yaddaş rəzalətidir.

***

Doktor Freyd öz nəzəriyyələriylə Əski və Yeni Dünyanın milyonlarla insanını nevrasteniya halına gətirdi.

***

Qorxu onu ürəkli olmağa məcbur edirdi...

***

Əgər son günlərdə kimsə Qərb mədəniyyətinin üstünlüyü haqda yersiz söhbətlər edirsə, buna elə də əhəmiyyət verməyin...

***

Əvvəllər insanlar bütün hərəkətlərini və düşüncələrini bilən, onları anlayan, ya da lazım gələndə mühakimə edəcək bir Varlığın olduğuna inanırdılar. Bəlkə, bir insan hardasa hamı tərəfindən tərk edilmiş, işsiz-gücsüz ola bilərdi, amma O-nun hər şeyi bildiyinə dair bir təsəllisi vardı. Nəvələri tərəfindən atılan xəstə nənə “Nələr çəkdiyimi bir Allah bilir” deyirdi. Ədalətsizliklə qarşılaşan adam “Tanrı günahsız olduğumu bilir” deyib təsəlli tapırdı. Anası nankor övladına “Allah şahiddir ki, sənin üçün nələr eləmişəm” deyirdi... Allahın nəzərindən heç nə qaçmazdı və O-nun baxışı bomboz, mənasız həyatı da mənalı edərdi.



## Cəmil MERİÇ:

Bizlər ki başları eyni kitablara əyilmiş kimsələrik. Bizdən də daha yaxın əqrəba ola bilərmi?!

***

Duya bilən insan üçün hər saniyə – ilk doğulandan son can verənəcən bütün varlıqların şərqiləriylə doludur...

***

Heç bir namuslu adam Nəmrudun, ya Fironun yanında ola bilməz.

***

Hər böyük adam – qucağında yaşadığı cəmiyyətin ögey övladıdır.

***

Cəmiyyət özünə bənzəməyən bir çocuq doğurduğu zaman onu beşiyindəcə boğmağa qalxar...

***

Avropalının yazdığı tarix xristian Avropanın qürurunu oxşayacaq bir sürü cəfəngiyatdır.

***

Cəza qanunumuzun ilk vəzifəsi, insanın içindən şeytanı qovmaqdı. Şeytanı, yəni Prometeyi.

***

Çağdaş düşüncənin ən çox sevdiyi mövzulardan biri Tanrının ölümüdür. Nitşedən Sartra qədər yüzlərlə yazar bizi Tanrının dəfn mərasiminə dəvət nəzakəti göstərdi... Tanrı ölüncə əxlaqi dəyərlərin başdan-başa dəyişməyi şərtdir.

***

Çöldəkilər özlərini ağıllı sansın deyə, bir sürü bina tikib, içinə bədbəxt adamları doldurmuş və dəlixana adını vermişik o binalara...

***

Damarlarında qanımın dolaşmağını istəyirəm, qanımın və eşqimin... Qələmi alova batırıram, könlümün alovuna...

***
Düşüncə bir gündə qurulmaz. Avropanın meyvələrini qoparıb, öz ağacımızdan asdıq.
***
Düşüncəyə cazibədarlıq və parlaq bir biçim vermək kiçildir düşüncəni. Böyük yazar içindən gələn səsi olduğu kimi hayqırandır. Kəlmələri işlədərkən avamın xoşuna gəlib, gəlməyəcəyini düşünməz.
***
Düşünmək – ən əvvəl düşünənlərin düşüncələri üzərində düşünmək, sonra da onların təsirindən qurtulmaqdır…
***
Fikir həyatımız – məfhumların gah gülünc, gah qorxunc maskalarla rəqsə çıxdığı bir karnavaldır. Ziyalılar "izm" qorxusu içində...
***
Hər cəmiyyət bir kitaba söykənir: Ramayana,.. və ya Quran... Sənin kitabın hansıdır?
***
Hər kəs tərəfindən qəbul edilən bir haqsızlığa üsyan etmək asanmı?..
***
Həvarilərini yarada bilməyən İsanın yeri dəlilər evidir, tarix deyil...
***
Həyatımızın təməlini təşkil eləyən böyük kəşflər ən çox da ibtidai cəmiyyətlərin əsəridir. Təsadüfən belə olub demək olarmı? Xeyr, təsadüf təkbaşına heç bir nəticə doğurmaz.
***
Xristianlaşmadıq, amma içimizdə bir orta əsrlər keşişi yaşayır.
***
İnanan bədbəxtliyindən bəhs edirsə, yalan söyləyir. İnanan üçün bədbəxtlik yoxdur.
***
İnanc əsalətlidir. Mədəniyyətlər onun əsəridir.
***
İnsanlar gerçəyi görə bilməsinlər deyə, önlərinə oyuncaqlar atılır.
***
İnsanlara qəlbimin bağçasından çiçəklər topladım. Və qucağımda çiçək qapılarını döydüm. Qapılar açılmadı...
***
"İzm"lər idrakımıza geydirilən dəli köynəkləridir. Etibarları mənşələrindən gəlir. Hamısı da avropalı.
***
Qamusa uzanan əl namusa uzanmışdır.
***
Qitələri ipək qumaş kimi kəsib biçərdik. Kəllələr damlardı qılınclarımızdan. Bir biz vardıq cahanda, bir də kafirlər…
***
Qızıllarını şüşəyə dəyişən qırmızıdərili mənə heç zaman gülünc görünmədi... Şüşə qızıldan daha əsilli-nəcabətlidir... Şüşə gözəldir, çünki qəlbi var... qırıla bilir... Şüşə işığa, dayan, deyən bir divar deyil...
***
Məfkurə naminə dara çəkilmək ölümlərin ən gözəlidir.
***
Mən dostlarımı sevgimə layiq olduqları müddətcə axtararam.
***
Nitşe "Zərdüşt"ü baqqal şəyirdləri üçün yazmadı.
***
Səhifələrində bütöv bir millətin nəbzi vurmayan dastan sabahlara səslənə bilməz...
***
Sfinks elə həyatın özüdür, hər addımda boğazına sarılıb suallarına cavab gözləyir.
***
Sürü ilə qarşı-qarşıyayıq... Sürü məni tapdalayıb keçir... və sürünün başında öz övladımdı... Arxalarınca bağırıram... Ha yana... ha yana...
***
Sürünün tarixi yoxdu... Sürüdən ayrılanı qurd yeyərmiş... Sürünün önünə keçmək sürüdən ayrılmaqdırmı..? Aradakı məsafə çoxalanda, bəli...
***
Taleyin xoşlandığı oyunlardan biridir gül ardınca qaçanların tikanla qarşılaşmağı.
***
Tanrı idrakolunmazdır. Ağlın vəzifəsi Tanrının idrak oluna bilməyəcəyini idrak eləməkdir.
***
Tarix qaliblərin yazdığı bir kitabdır.
***
...Və Tanrı saysız elçi yolladı insanlara. Məbədlər hər dövrdə boş qaldı.
***
Vətənlərini yaşanmaz sayanlar – vətənlərini "yaşanmaz"laşdıranlardır.
***
Zərdüştdən bəri hansı müəmmanı aça bildik ki?!.



## Aleksandr SOLJENİTSİN:

Çox qədim zamanlardan bəri cəsarətsizliyin sonun başlanğıcı olaraq qəbul edildiyini söyləməyə gərək varmı, əcəba?!.

***

Doğruya əlavə elədiyimiz hər şey doğrunu əskildir.

***

İnsan üçün inanc, mədəsinə endirdiyi loxmadan daha qiymətlidir.

***

Əgər millətin mənəvi gücü tükənibsə, onu heç bir hökumət xilas edə bilməz.

***

Yaxşıya yaman demək nə qədər yamandırsa, yamana yaxşı demək ondan qat-qat yamandır.

***

Ədəbsizlik edib deyə bilərikmi ki, bugünkü dünyanın bəlaları üçün biz cavabdeh deyilik?!.

***

Rejim əxlaqsızdırsa, vətəndaş da onun qarşısında öhdəçilikdən azaddır.

***

Sənətin bir zaman pozulacağından, şəklini itirəcəyi və öləcəyindən xəbər verənlərin hamısı yanılmışdır. Ölən bizlərik, sənət isə əbədidir...

***

Siyasətçinin dahiliyi xalqın fəlakətindən mənfəət aparmağındadır.

***

Bilirsənmi, atlar niyə bir belə uzun yaşayırlar? Onlar münasibətləri aydınlaşdırmırlar.

***

İnsana yalnız həyat deyil, həm də vicdan bir dəfə verilir.

***

Kimlərin ki vicdanı rahatdır, çöhrələri də tər-təmiz olur.

***

Həyat xoşbəxtlikçün bəxş olunubdur.

***

Ucuzun ardınca qovalamağımız bizə həmişə o qədər baha başa gəlir ki...

***

Tarix elə bir həddəcən yeknəsəqdir ki, onu oxumaq iyrəndirir. Zənn edərsən, “Pravda”dır.

***

Biz Polşanı boğan vaxt: “Rus olmaq utancvericidir” – deyə Gertsen hayqırmışdı.

***

Filosoflardan biri söyləmişdi ki, əgər insan ağrımasaydı, sərhəd tanımaz, hədd-hüdud bilməzdi.

***

Xeyli əvvəl – mən hələ uşaq ikən neçə-neçə yaşlı adamdan Rusiyanı bürümüş böyük sarsıntılar səbəbiylə bağlı bunu eşidərdim: “Adamlar Allahı unudublar, hamısı bu üzdəndir...” Əgər məndən XX əsrin başlıca əlamətini qısaca necə səciyyələndirmək olar deyə soruşsaydılar, bundan daha dəqiq və tutumlu söz tapa bilməzdim: “Adamlar Allahı unudublar”.

*Toplayan, tərtib və tərcümə edən:*
**C. MƏMMƏDOV**